# Elm və təhsil naziri Bakı Mühəndislik Universitetində







## BMU-da yeni istifadəyə verilmiş tədris korpusunda laboratoriyalara və texnoparka baxış keçirilib

**Elm və təhsil naziri Emin Əmrullayev Bakı Mühəndislik Universitetinin (BMU) yeni istifadəyə verilmiş tədris korpusunda olub, burada yerləşən laboratoriyalara və texnoparka baxış keçirib.**

BMU-nun rektoru Yaqub Piriyev təhsil müəssisəsinin maddi-texniki bazası, elmi-tədqiqat fəaliyyəti barədə naziri məlumatlandırıb. Rektor tədqiqatların səmərəli təşkili, texnoloji yeniliklərin mənimsənilməsi, tətbiqi məqsədilə mövcud ekosistemin və universitet texnoparkının fəaliyyətinin gücləndirilməsi, eləcə də nəzərdə tutulan hədəflərlə bağlı zəruri informasiyaları diqqətə çatdırıb.

Sonra Emin Əmrullayev geniş maddi-texniki bazaya, müasir tələblərə cavab verən elmi-tədqiqat və tədris laboratoriyalarına, eyni zamanda tələbələrin əl işlərindən ibarət sərgiyə baxış keçirib. Universitet tələbələrinin müxtəlif yarışlarda qazandıqları nailiyyətlərlə tanış olan nazirə həyata keçiriləcək yeniliklər, gələcəkdə icrası nəzərdə tutulan layihələr haqqında məlumat verilib.

Universitetin texnoparkına da baş çəkən Emin Əmrullayev ümumilikdə tələbələrə geniş araşdırma imkanları yaradan laboratoriyaların fəaliyyətindən məmnunluğunu bildirib.

Universitetin rektor və professor-müəllim heyəti ilə söhbət aparan nazir ali təhsilin bütün səviyyələri üzrə mühəndis kadrlarının hazırlığını, fundamental və tətbiqi elmi-tədqiqatlar aparan müəssisənin qarşısında duran vəzifələri qeyd edib. Ali təhsilin inkişaf prioritetlərinə uyğun olaraq, universitetdə tədris və təhsilin keyfiyyətinin daha da yüksəldilməsi, yeni ixtisasların açılması, infrastrukturun gücləndirilməsi məsələləri nəzərdən keçirilib.

BMU-nun daha da inkişaf edəcəyinə inamını vurğulayan elm və təhsil naziri kollektivə uğurlar arzulayıb.

# Hədəflər və gələcək planlar müzakirə olunub

## Nazir Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin əməkdaşları ilə görüşüb



**Elm və təhsil naziri Emin Əmrullayev Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin əməkdaşları ilə görüşüb.**

Görüşdə təhsil sistemində həyata keçirilən islahatlar, agentlikdə müxtəlif fəaliyyət istiqamətləri üzrə görülən işlər, təhsilin inkişafı ilə bağlı qarşıya qoyulan hədəflər və gələcək planlar barədə danışılıb.

Emin Əmrullayev təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin yaradılması üçün bir sıra məsələlərin icra səlahiyyətlərinin yerlərə ötürülməsinin əsas məqsədlərdən biri olduğunu vurğulayıb. Nazir Elm və Təhsil Nazirliyinin həyata keçirdiyi təhsil siyasətində agentliyin rolunu, ümumi strategiyaya uyğun olaraq proseslərə nəzarət və icra mexanizminin qurulmasının əhəmiyyətini diqqətə çatdırıb. Həmçinin təhsilin keyfiyyətinin artırılmasının, metodik xidmətlərin, şagirdlərin təhlükəsizliyi məsələlərinin və bu istiqamətdə müəyyən mexanizmlərin işlənib hazırlanmasının vacibliyini qeyd edib.

Nazir çıxışının sonunda işin daha səmərəli təşkili ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verib, agentlik əməkdaşlarına fəaliyyətlərində uğurlar arzulayıb.

Görüşdə məktəbdənkənar təhsilin şagirdlərin sosial fəaliyyətinin və yumşaq bacarıqlarının formalaşmasına təsirinin vacibliyi vurğulanıb. Bildirilib ki, ki, ölkə üzrə, xüsusilə regionlarda şagirdlərin maraq, meyil və bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcı qabiliyyətlərinin inkişafı və idmanın təşviqi olduqca əhəmiyyətlidir.

Ölkə üzrə məktəbəqədər təhsilin göstəricilərinin inkişafı barədə müzakirələrin də aparıldığı görüşdə məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsi və məzmunun təkmilləşdirilməsi, pedaqoji və idarəetmə heyətinin peşəkarlığının artırılmasının müvafiq istiqamətdə inkişafa töhfə verəcəyinə əminlik ifadə edilib.

# Universitet-sənaye tərəfdaşlığı

**Dekabrın 9-da Azərbaycan Texniki Universitetində yerləşən Davamlı İnkişaf Mərkəzində Universitet-Sənaye Tərəfdaşlığına dair Dialoq və Əməkdaşlıq Platformasının növbəti görüşü keçirilib.**

Tədbirdə Təhsilin İnkişafı Fondu, Mədəniyyət Nazirliyi, İqtisadiyyat Nazirliyinin tabeliyində 4SİM Təhlili və Koordinasiya Mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Texniki Universiteti, “PSG-Kapital İnvestisiya Şirkəti”, “Bilişim Vadisi Bakı” və “Baku Design Academy”nin nümayəndələri iştirak ediblər.

“Universitet, sənaye və dövlət əməkdaşlığı modeli: “Bilişim Vadisi” texnoparkı nümunəsi” mövzusu ilə çıxış edən “Bilişim Vadisi Bakı”nın direktoru Qamət Kərimov texnoparkların, eləcə də Bilişim Vadisinin işləmə prinsipləri, qeyri-hökumət təşkilatları və dövlət müəssisələrinin texnoparklar ilə əməkdaşlıq nümunələrindən bəhs edib.

Daha sonra “Baku Design Academy”nin təsisçisi və direktoru Aysel Gülməmmədova akademiyanın fəaliyyəti, nailiyyətləri və hədəfləri haqqında görüş iştirakçılarını məlumatlandırıb. A.Gülməmmədova “Müasir dövrün kadr tələbləri” mövzusunda ətraflı təqdimatla çıxış edib.

Mədəniyyət Nazirliyinin Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Məmmədov hazırda Nazirliyin daha müasir yanaşma və innovativ idarəetmə mövqeyində olduğunu bildirərək bu istiqamətdə müvafiq layihə və təşəbbüslərin dəstəkləndiyini qeyd edib.

“Dəyirmi masa” və müzakirələr zamanı həm universitet, həm də özəl sektor nümayəndələri yaradılan platformadan gözləntiləri haqqında fikirlərini bildiriblər.

# MDU-da II beynəlxalq elmi konfrans keçirilib

**Dekabrın 8-9-da Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi və Mingəçevir Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Mingəçevir Dövlət Universitetində (MDU) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş “Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər” mövzusunda II beynəlxalq elmi konfrans keçirilib.**



Beynəlxalq konfrans MDU, Türkiyənin Qazi Universiteti, Ankara Hacı Bayram Veli Universiteti (AHBVU), Kayseri Universiteti, Litvanın Mikolas Romeris Universiteti (MRU), Ukraynanın Kiyev Milli Texnologiya və Dizayn Universiteti (KNUTD) və Qırğız Respublikasının Qırğız İqtisad Universitetinin (KEU) həmtəşkilatçılığı ilə baş tutub.

Konfransın açılışında MDU-nun rektoru Şahin Bayramov, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, Qazi Universitetinin rektoru Musa Yıldız, Lənkəran Dövlət Universitetinin (LDU) rektoru Natiq İbrahimov, MRU-nun rektoru İnqa Zaleniene, Kayseri Universitetinin rektoru Kurtuluş Karamustafa, KNUTD-un rektoru İvan Qrişenko, RİSEBA Tətbiqi Elmlər Universitetinin rektoru Lucija Rutka, KEU-nun rektoru Almaz Kadıraliyev, Azərbaycan Texnologiya Universitetinin rektoru vəzifəsini icra edən Yaşar Ömərov, AHBVU-nun Turizm fakültəsinin dekanı İrfan Yazıcıoğlu, Çinin Lancou Maliyyə və İqtisadiyyat Universitetinin prorektoru Hu Kai və müstəqil tədqiqatçı Işıl Keskin Şahan çıxış ediblər.

MDU-nun rektoru Ş.Bayramov çıxışında qeyd edib ki, beynəlxalq konfransın əsas məqsədi davamlı iqtisadi inkişafın qlobal trendləri, dördüncü sənaye inqilabının yaratdığı reallıqlar, regionların tarazlı inkişafı, davamlı enerji təminatı, postkonflikt dövründə müasir tendensiyalar, keyfiyyətli təhsil sahəsində milli və beynəlxalq təcrübələr, ekoloji dayanıqlığın təmini və digər istiqamətlərdə aparılan elmi tədqiqatların nəticələrinin təqdim olunmasından və elmi müzakirələrin aparılmasından ibarətdir.

Rektor bildirib ki, daimi sülhün tərəfdarı olan Azərbaycanın işğaldan azad edilən torpaqlarında hazırda sürətli və geniş quruculuq fəaliyyətləri həyata keçirilir. Davamlı qüdrətlənən Azərbaycan regional və beynəlxalq əhəmiyyətli layihələrin təşəbbüskarlarından və icraçılarından biridir. Bu kontekstdə alimlərin və akademik insanların apardıqları tədqiqatlar və irəli sürdükləri elmi əsaslandırılmış təkliflər faydalı ola bilər. Beynəlxalq konfrans bu sahədə atılan səylərin birləşdirilməsi üçün əlverişli platformaya çevrilmək imkanına malikdir.

Rektor məlumat verib ki, konfransa Azərbaycan, türk, ingilis və rus dillərində ümumilikdə 562 tezis və məqalə daxil olub.

Elm və Təhsil Nazirliyi adından konfrans iştirakçılarını salamlayan nazir müavini Firudin Qurbanov çox mühüm bir mövzuya, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunan beynəlxalq səviyyəli elmi tədbirin təşkilinə görə MDU rəhbərliyinə və bütün təşkilatçılara təşəkkürünü bildirib.

Ulu Öndərin uzaqgörən dövlət idarəçiliyi sayəsində ölkənin sürətli inkişafının təmin olunduğunu qeyd edən F.Qurbanov dahi şəxsiyyətin zəngin ideyalarının və siyasi irsinin öyrənilməsi və təbliğinin önəmini vurğulayıb, konfransın bu aspektdən əhəmiyyətinə diqqət çəkib.

Bildirilib ki, bütün sivilizasiyanın gələcəyi və onun taleyi üçüncü minillikdə davamlı inkişafın məqsəd və prinsiplərinin reallaşmasından asılıdır. Davamlı inkişafın təmin edilməsi bütün dünya ölkələrinin, o cümlədən Azərbaycanın dövlət siyasətinin başlıca prioritetlərindəndir. BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş 17 davamlı inkişaf məqsədi arasında 4-cü hədəf inkluziv və ədalətli, keyfiyyətli təhsili və hamı üçün ömürboyu öyrənmə imkanlarını təmin etməkdir. Üçüncü minilliyin sivilizasiya inkişafının yeni modeli yalnız onun ən mühüm alt sistemi olan təhsilin köməyi ilə mümkündür.

Qeyd edilib ki, ali təhsil müəssisələri şəbəkəsi qlobal səviyyədə davamlı inkişafa keçid sahəsində xüsusi transmilli rolunu daşıyır. Bu istiqamətdə ali təhsil müəssisələrinin üzərinə düşən öhdəliklərdən bəhs edən F.Qurbanov çıxışlarda və müzakirələrdə səsləndiriləcək dəyərli fikirlərin və irəli sürüləcək təkliflərin konfransın işinə töhfə verəcəyinə inamını ifadə edib və konfransın işinə uğurlar arzulayıb.

Daha sonra konfransın plenar iclası keçirilib.

Konfrans 10 üzbəüz və 18 onlayn bölmə iclasları ilə işini davam etdirib. Bölmə iclaslarında müxtəlif mövzularda məruzələr dinlənilib. Müzakirələrdən sonra beynəlxalq konfransın işinə yekun vurulub.

Konfrans çərçivəsində MDU və Türkiyənin Kayseri Universiteti arasında əməkdaşlıq protokolu imzalanıb.

Sonra beynəlxalq elmi konfransın qonaqları MDU-nun tələbə və magistrantları üçün ustad dərslər keçiblər. Daha sonra qonaqlar MDU-nun akademik və inzibati heyət üzvləri ilə görüşüblər.